QARAQAN

# EVAKUASİYA

qanun nəşriyyatı

Romanda yazılan fikirlər və ideyalar, dini, tarixi, etnik düşüncələr yalnız əsərdəki qəhrəmanların şəxsi fikirləridir. Müəllif obrazların dilindən verilən sözlərə görə məsuliyyət daşımır.

**Qaraqan EVAKUASİYA**
Bakı, Qanun Nəşriyyatı, 2024, 256 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 18.12.2023

Naşir: Şahbaz Xuduoğlu
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım
Texniki redaktor: Anar Əli

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-501-4

© Qanun Nəşriyyatı, 2013; 2024

# Birinci hissə

## Fidan

*"Təhlükə qorxusu təhlükənin özündən on dəfə təhlükəlidir".*
**Daniel Defo**

Riyaziyyatı haradasa başa düşmək olar. Rəqəmlər, hesablar sabah hansısa bir məsələdə bizə lazım olacaq. Evə divan alanda ölçüsünü bilmək üçün, ya bazarlıq eləyəndə çəkini bilmək üçün, pulu saya bilmək üçün. Riyaziyyat lazım ola bilər. Biologiya da vacibdi ən azı öz bədənimizi öyrənmək, bitkiləri anlamaq üçün, bu informasiyalar bizə necəsə lazım ola bilər. Ədəbiyyatı da başa düşdüm, yazıçıdı, şairdi – bu adamlar millətin xarakterini formalaşdırır, mənəviyyatını zənginləşdirir.

Amma bu zəhrimara qalmış Qacar şahın hakimiyyət illəri, ya slavyanların yürüşü, ya Fətəli xanın birinci tutduğu vilayət, sonra da ikinci tutduğu vilayət, döyüşlər arasındakı il fərqi – bax bunu heç cür anlaya bilmirəm. Axı bu zəhrimar rəqəmləri nəyə görə əzbərləməliyəm? Həyatın hansı anında mənə lazım olacaq bu rəqəmlər, bu xırdalıqlar? Bakıda yüz minlərlə şagird var, hamısı 11-ci sinfə kimi milyonlarla mənasız faktı əzbərləyir, doğrudan mənasız, heç kimə lazım

olmayan faktları əzbərləyir və bu, bizim dilimizdə elm adlanır? Bu nəyə lazımdır ki? Mənim nəyimə lazımdı nə vaxt olub Hunların ikinci yürüşü? Bu mənə kimisə sevməkdə, ərə getməkdə, ya sabah restoran açıb biznes qurmaqda, ya xaricə köçüb işləməkdə necə kömək ola bilər ki? Yəni elə bir ehtimal var ki, kimsə mənə küçədə yaxınlaşıb Hunların yürüşünün nə vaxt olduğunu soruşsun? Əlbəttə ki yox. Bunu atama da, anama da demişəm. Hətta onların özündən soruşmuşam, onlar da bilməyiblər. Bu hadisəni bizim qoca, əlləri əsən tarix müəllimimizdən başqa heç kəs bilmir. Bir gün direktor sinfə girən kimi birinci məni qaraladı – "Niyə dərsə qulaq asmırsan?". Sualın cavabında mən də sual verdim: "Hunların yürüşü nə vaxt olub?". O, gözlərini bərəldib susdu. Hunların bu zəhrimara qalmış yürüş illərini direktor da bilmirdi.

Müəllimlərlə uzun-uzadı mübahisələrim, imtahandan aldığım ikilər, verdiyim suallar, geyindiyim paltarlar, bütün bunlar onlarda gülüş və təəccüb doğurur. Uşaqların çoxu elə bilir ki, valideynlər nə deyirsə onu eləmək lazımdı, müəllim nə tapşırırsa onu oxumaq lazımdı. Lap oxumasalar belə içlərində inanırlar ki, müəllimlərin evə tapşırdığı dərslər doğrudan da bizə lazımdır. Elə bilirlər dərsdən beş aldılarsa sabah "Mersedes"ləri də olacaq, villaları da. Day bilmirlər ki, dərs başqa, iş başqa. Mənsə heç bir halda dilimi qatlayıb yerimdə oturmuram, elə bil susmaq və itaət etmək düyməsi mənim beynimdə işləmir. Bu sonuncu ili də bitirib Rəssamlıq akademiyasına daxil olacağam. Ən yaxşısı rəssamlıqdı. Ağlıma gələni çəkib üstünə 2000 euro qiymət yazacağam. Qoy bir il, iki il heç nə qazanmayım, amma bir gün bir varlı adam elə biləcək ki, bu rəsmdə böyük fəlsəfə var – və alacaq. Axı mənim kimi qızları heç bir ofisdə, heç bir şirkətdə işə götürməzlər. Amma rəssam olsam bütün dəliliyimi, qeyri-adiliyimi mənim xüsusi

istedadımla əlaqələndirəcəklər. Onda istədiyim hər şeyi edə biləcəm. Camaat da baxıb deyəcək ki, işiniz yoxdu rəssam adamdı, yəqin bədahətən ağlına ideya gəlib ona görə gicləyir.

## Həyəcan siqnalı

Səhər yuxudan oyanıb dişlərimi fırçaladım, sonra yemək yeyib güzgünün qabağında oturdum. 11-ci sinif çox qəribə bir keçiddi, hələ məktəbli sayılsam da bədən quruluşumla, ümumi görünüşümlə heç də 23 yaşlı qızlardan geri qalmıram. Dərsə gedəndə ac baxışları həmişə üzərimdə hiss edirəm. Sanki oğlanlar şüuraltı anlayırlar ki, mən tam böyümüşəm və digər qızlardan fərqli olaraq onları həqiqətən çox xoşbəxt edə bilərəm. Psixologiyanı sevdiyimdən bilirəm ki, oğlanlarda bir çox şey şüuraltı səviyyədə baş verir. Yəni onlar qıza vurulanda ya qızı sevəndə bunu bilərəkdən eləmirlər. Bu təbiət qanunlarına görə bir erkək kimi onlara verilmiş instinktlərdir. Oğlanlar instinktlərinə uyğun olaraq qızlara vurulub evlənirlər. Məsələn, qırmızı pomada, ya qırmızı paltarlar niyə seksual sayılır? Çünki yaz aylarında dişi heyvanların cinsi orqanı xüsusi qırmızı hormon ifraz edir və bu, erkəklərə bir siqnal olur. Yəni ki, "mən cinsi əlaqəyə hazıram". Ona görə də kişi qırmızı paltarlı qadın görəndə şüuraltı düşünür ki, bu qız cinsi əlaqəyə hazırdı. Yaxşı, bəs kişilərin niyə böyük sinəli qızlardan xoşu gəlir? Sizcə sadəcə porno saytların reklamlarına görə? Xeyr! Bu da biologiyadır. Hər bir erkək dişini seçərkən şüuraltı olaraq onun sağlamlığına fikir verir, çünki cinsi əlaqədən yaranacaq uşaq sağlam olmalıdır. Erkəklər dişiləri seçərkən ilk olaraq onların sinəsinə fikir verirlər. Sinə böyük və sağlam olsa, bu dişidən olacaq uşaq daim sağlam və keyfiyyətli südlə

qidalanacaq. Yəni bu, oğlanların acgözlüyü ilə yox, onların şüuraltı instinktləri ilə bağlıdır. Heç oğlanlar özləri belə bunu bilmir. Rəqs edən qadınlar da kişiləri cəlb edir. Bu da yalnız sağlamlıqla bağlıdır. Əgər qadın belini fırladıb ayağını cəld tərpədə bilirsə deməli erkəkdən olacaq uşağı doğmaqda heç bir çətinlik çəkməyəcək. Ona görə kişilər kök və hərəkətsiz ya çəyirtkə kimi arıq qızları xoşlamırlar. Çünki belə qadınlar uşaqlara lazımlı qidanı və rahatlığı verə bilmirlər. Bu fikirlərlə makiyaj edəndən sonra ayağa qalxıb paltarıma baxdım. Özəl olmağı xoşlasam da dərsə həmişə cins şalvar və sport ayaqqabılarında gedirəm. Bu ya Converse olur ya Nike. Göy cins, ağ ayaqqabı və ağ düyməli köynək. Bütün bunların da üzərindən kiçik qara jiletka geyinirəm. Belə geyimdə həm çox qəşəng oluram həm də çox rahat. Məni dərsə atam aparır. Böyük cipdə məktəbin həyətinə gəlirəm, orda atamın yanağından öpüb çantamı götürürəm. Yolda biz həmişə Avrilin mahnılarına qulaq asırıq. Atam sağollaşanda həmişə maqnitofonu söndürüb mənə uğurlar diləyir. Atam Neft şirkətində işləyir. Pulu da yaxşdı, hörməti də. Amma bunlardan əlavə həm də yaxşı atadı. O həmişə məni hər şeydə dəstəkləyir, qeyri-adi dəliliklərimə dözməli olsa da bir dəfə də olsun bu barədə mənə pis bir şey deməyib. Bəlkə də imkanlı olduğundan haradasa rahatlıq var içində – gözəl və tərbiyyəli olmağımdan başqa məndən heç nə tələb etmir. Anamı da çox istəyir, məni də. Evin tək qızı olduğumdan, nənə-babalar bizdən ayrı yaşadığından üçümüz həmişə yaxşı vaxt keçirə bilirik. Yəni Bakıda bir çox gənclərdə olan ailə problemlərindən heç biri məndə yoxdu. Mən doğrudan da yaxşı ailədə böyümüşəm. Arada xaricə uçub istirahət eləmişik, həmişə paltarlarım olub, rahat, geniş evimiz olub. Heç bir ailə problemim olmadığından, maddi çətinliyim olmadığından rəssamlığa və psixologiyaya

ayırmağa vaxtım və həvəsim də olub. Mən bilirdim ki, rəssam olub pul qazanmasam belə atam məni saxlayacaq, evlənsəm və sevdiyim oğlan da kasıb olsa atam yenə də bizi saxlayacaq. Ona çox güvənirdim. Amma heç ağlıma da gəlməzdi ki, öyrəşdiyim bu rahat və komfortlu həyat tərzi bircə günün içində dəyişə bilər.

Bu qəribə zəng çalınmamışdan əvvəl sinifdə tam sakitlik idi. Hamı tarix müəlliminin sifətinə baxır, o isə eynəklərinin üstündən iri gözlərini mənə zilləyib cavabımı gözləyirdi. Elə bil bilirdi ki, bu gün öyrənə bilməmişəm bu zəhrimar Yeni tarixi. Amerika Prezidentləri Vudro Vilson və Kennedinin, sonra da Ruzveltin hakimiyyətlərinin ardıcıllığını danışmalıydım. Hələ bilə-bilə ki, mən rəssam olacam (bunu dəfələrlə ona demişdim) yenə də mənə gic-gic suallar verir, öz ağıllılığını sübut etmək istəyirdi. Mən dəqiq bilirdim ki, Kennedini maşınında öldürüblər, amma o biriləri nə vaxt olub, nə vaxt ölüb heç bilmirdim. Bir də bilirdim ki, Kennedi ilə Merilin Monronun eşq macəraları olub. Başqa heç nə bilmirdim. Amma bunu o qoca əlləri əsən, boğazından dərisi sallanan və gözləri ilə məni divara dirəyən müəllimə deyə bilməzdim. Pencəyin arasından çıxan arıq uzun boynu lap çanağından çıxan tısbağa boynuna bənzəyirdi. Beynimdə bircə o idi ki, bu on birinci sinif tez qurtarsın. Amma hələ yarısındaydım. Hara qurtarır?

Müəllimsə cavabı gözləyirdi. Mən güya beynimdə nə isə hesablayır, barmaqlarımı hər dəfə bükürdüm. Amma bütün məqsədim vaxt qazanmaq idi. Axı çox vaxt nəsə baş verir ki, birdən dərs pozulur. Ya bu qoca zavuçu direktor yanına çağırır, ya kimsə qapını döyüb dərsə gecikdiyini deyir və müəllim onu danlamağa başlayır, ya da kimsə mənasız sual verib müəllimin başını qarışdırır.

Amma gözlədiyim hadisələrdən heç biri olmadı. Baş verəcək hadisəni, məni müəllimin sualından xilas edəcək hadisəni isə heç ağlıma belə gətirməmişdim.

Hər şey qəflətən oldu. Birdən möhkəm zəng çalındı. Qəribə bir zəng. Bütün siniflərə səs salan, məktəbin binasını silkələyən çox qəribə, gurultulu zəng. Bəlkə də bu zəng deyil, hansısa siqnal idi. Adətən belə zənglər ancaq müharibə filmlərində səslənərdi. Zəng çalınan kimi bütün sinif donub qaldı. Əlləri əsən tarix müəllimi mat-mat divarlara baxır, səsin haradan gəldiyini anlamağa çalışırdı. Mən də o yan bu yana çevrilib bu qulaq batıran səsin haradan gəldiyini tapmaq istəyirdim. Bəzi qızlar qulaqlarını əllərilə tutmuşdular. Arxa partada oturan ən zirək oğlanlar ayağa qalxıb qapıya yaxınlaşmışdılar. Mənsə yerimdəcə donub qalmışdım. Bu nə zəngi idi görəsən? Zəng kəsilən kimi yuxarı mərtəbədən və dəhlizdən gurultu səsləri gəlməyə başladı, bu yüzlərlə şagirdin addım səsi idi. Hamı harasa qaçırdı. Əvvəlcə bu, Neft Akademiyasındakı qorxunc hadisəni xatırlatdı. Bir nəfər əlində tapanca ilə iyirmidən çox tələbəni güllələmişdi. Amma bu fikri tez beynimdən çıxartdım. Bütün şagirdlər qapının ağzına yığılıb dəhlizə baxırdı. Tarix müəllimi də ayağa qalxmışdı. Eyni hadisə bütün siniflərdə baş vermişdi. Direktor müavinləri uşaqları bayıra səsləyir, şagirdlər qarışqa kimi dəhlizə tökülürdülər. Həmin an bir az sevinmişdim də. Yəqin ki, nəsə iclas ya tədbirdi, deməli tarix müəllimindən canım qurtardı.

Pilləkənləri enməyə başladıq. Uşaqlar bir-birindən nə baş verdiyini soruşur, müəllimlər bir-birini sakitləşdirirdi. Amma kimi deyirdi müharibə başlayıb, kimi deyirdi yəqin yoxlama gəlib. Kimi deyirdi bəlkə prezidentin özü məktəbimizə gəlib. Bunların hamısı inandırıcı gəlirdi.

Biz həyətə düşəndə direktorun əsəbi baxışları hamını susmağa məcbur etdi.

"Düzün hamısını bura, siniflərə uyğun düzün".

Direktorun baxışlarından hiss olunurdu ki, heç o özü də bilmir biz niyə buraya düzülmüşük. Amma tez-tez udqunub öskürməyindən anlaşılırdı ki, indicə bizə nəsə deyəcək.

"Əziz şagirdlər, sinif rəhbərlərinizdən ayrılmayın. Nizam-intizama riayət edin. Bayaq eşitdiyiniz səs həyəcan siqnalı idi. Bu siqnal ölkədə hər hansı fövqəladə hal baş verəndə çalınır. Hamı öz müəlliminə qulaq assın. Məsələyə aydınlıq gələn kimi sizi evinizə buraxacayıq. Heç kəs məktəbin həyətindən bayıra çıxmasın".

Bizim direktor yaxşı adam idi, ona görə bütün məktəbdə hörməti vardı, onun sözünə qulaq asırdılar. Qorxduqları üçün yox, onun dediklərinə inandıqları üçün. Bu sözlərdən sonra pıçıltılar başlandı, şagirdlər mızıldanır, müəllimlər bu siqnalı müzakirə edir, kişi müəllimlər qadınları sakitləşdirməyə çalışırdılar. Hamı sakitcə nə baş verəcəyini gözləyirdi. Məktəbin ən kök ağır yerişli müəllimələri də pillələrdən aşağı enirdilər. Uşaqlardan kimsə demişdi ki, təyyarələr gələcək. Ona görə hamı göyə boylanırdı. Əlimi çantama salıb mobil telefonumu tapdım. Bizdə uşaqların telefon gəzdirməsinə icazə vermirdilər. Ona görə çantanın içindəncə atama zəng etməyə çalışdım. Amma telefon dalğaları itmişdi. Bax elə həmin an mən doğrudan qorxmağa başladım. Bir daha zəng etməyə çalışdım, yenə alınmadı. Sinif yoldaşıma dedim ki, telefonum tutmur. O da öz telefonuna baxdı, onun da telefonunda dalğa yox idi. Bundan sonra həyəcan domino daşları kimi şagirddən şagirdə ötürüldü. Bir neçə dəqiqə sonra hətta müəllimlər də telefonlarını havaya qaldırıb dalğa axtarır, zəng etməyə çalışırdılar. Amma heç bir xeyri yox idi, yüzlərlə telefon ha-